# 12 noyabr - Azərbaycan Respublikasının siyasi-hüquqi təməlinin qoyulduğu gün

**Azərbaycan Respublikasının dövlətçiliyinin əsas prinsiplərindən biri suverenlik və konstitusiya hakimiyyətidir. Konstitusiya və suverenlik, ölkənin dövlət quruluşunun təməl prinsiplərini təşkil edir.**

**"Konstitusiya" latın sözü olub quruluş, təsisat mənasını verir.**

**Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilmişdir. Bu, ölkənin ilk müstəqil Konstitusiyası olmaqla, onun demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmasını təmin edən əsas qanundur.**

Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən əsas amillərdir.

Belə ki, Konstitusiyada qanunun aliliyi, insan və vətəndaş hüquq və azadlıqları, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü kimi əsas prinsipləri təsbit edilir. Milli Konstitusiyamızda əksini tapan müddəaların böyük əksəriyyəti də insan hüquqlarının qorunmasina həsr edilib. Bu sənəd ölkədə hüquq sisteminin təməlini qoymuş və Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun inkişafını təmin etmişdir.

Konstitusiyamızın qəbulundan ötən dövr ərzində bu ali sənədə 3 dəfə: 2002, 2009 və 2016-cı illərdə əlavə və dəyişikliklərin edilməsi, Prezident İlham Əliyevin Sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə" İnsan Hüquqları Günü" kimi təsis olunması insan hüquqlarının qorunmasının prioritetliyini təsdiqləyir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 28 dekabr 2024-cü il tarixdə imzaladığı Sərəncamla 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi də ölkəmizdə bu sahədə atılan növbəti addımların davamıdır. Bu Sərəncam Azərbaycan Respublikasının Konstitusiyanın qəbul edilməsinin 30 illiyi və dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümü ilə bağlıdır.

Əminliklə deyə bilərik ki, mühüm tarixi əhəmiyyətə malik olan bu sərəncam tarixi Zəfərimizin regionda və dünya siyasətində yol açdığı yeniliklərin təqdimatında əsaslı rol oynayacaq.

Ulu öndər Heydər Əliyev qeyd etmişdir: "Konstitusiya elə bir sənəddir ki, o gərək uzun müddət yaşasın. Onun ömrü uzun olmalıdır. Konstitusiya tez-tez dəyişilə bilməz. Əgər konstitusiya doğrudan da həm bu günü, həm də gələcəyi tamamilə əks etdirə bilirsə, o, üzunömürlü ola bilər, gələcəkdə ona dəyişikliklər etməyə ehtiyac olmaz və ya çox cüzi dəyişikliklər aparıla bilər".

Konstitusiya hər bir sivil ölkənin əsas qanunu kimi ən ali hüquqi qüvvəyə malikdir. Konstitusiya dövlətin hüquqi əsaslarını, idarəçilik mexanizmini və vətəndaşların fundamental hüquqlarını tənzimləyən əsas qanundur. Suverenlik isə dövlətin daxili və xarici siyasətində müstəqil olmasını təmin edən ali hakimiyyət məfhumudur. Hər iki məfhum bir-birilə sıx əlaqəlidir. Çünki dövlətin suverenliyi konstitusiya ilə təsdiqlənir və hüquqi əsaslarla qorunur.




Konstitusiya suverenliyin qorunması üçün bütün hüquqi mexanizmləri təmin edir.

Bəşər tarixində elə böyük mütəfəkkir, filosof tapmaq çətindir ki, o, hüquq, onun mahiyyəti barədə fikir söyləməsin.

Çağdaş dövrümüzdə hər bir insanın öz hüquqlarını bilməsi, onların uğrunda mübarizə aparması olduqca vacibdir. Bəşər övladı hüquq və azadlıqlarının tanınmasına, onların qorunmasına təminat verilməsinə uzun mübarizələrdən sonra nail olub. Amma bu gün də o mübarizə dayanmayıb. Bizim hər birimiz öz hüquqlarımızın həyata keçməsi uğrunda mübarizə aparmalıyıq.

Hər bir insan azaddır. Lakin hər bir vətəndaşın hüquqlarını ölkənin demokratik qanunları müəyyənləşdirir. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı əvəzsiz nailiyyətdir. İnsan hüquqları olmayan ölkədə vətəndaşlıq hüququndan danışmaq düzgün sayılmaz. Məhz insan hüquqlarının genişləndirilməsi cəmiyyətin inkişafına, demokratiyanın təntənəsinə şərait yaradır. İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlət siyasətinin əsasını təşkil edir.

Hər bir xalq üçün öz suverenliyinə sahib olmaq, hər bir insan üçün müstəqil dövlətin vətəndaşı olmaq ən böyük milli sərvətdir. Azərbaycanın zəngin dövlətçilik irsi, tarixən mövcud olmuş müstəqil dövlətlərimiz həm də xalqımızın suverenlik irsidir. Suverenlik həm də elə bir irsdir ki, hətta əsarət altında olanda belə heç vaxt insanların hafizələrindən, yaddaşlarından silinmir, hər zaman nəsildən-nəsilə ötürülərək yaşadılır. Təsadüfi deyil ki, tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın suverenlik və müstəqil dövlətçilik əzmini sarsıda bilməyib.

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur.

Vətən qarşısındakı xidmətləri ilə əbədiyaşarlıq qazanmış ümummilli lider Heydər Əliyev qətiyyətlə vurğulamışdır ki, Konstitusiya dövlətlə, hakimiyyətlə, xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir.

Bu gün Azərbaycan xalqı əsrlər boyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahibdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, rəşadətli əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına xalqımızın milli sərvəti sayılan ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olunub. Bütün ölkə ərazisində konstitusiya quruluşumuz bərqərar olub, Dövlət Bayrağımız əzəli torpaqlarımızda əzəmətlə dalğalanmaqdadır, keçmiş məcburi köçkünlərin doğma ata-baba yurdlarında daimi məskunlaşması təmin olunur. Xalqımız böyük qürur və fəxarət hissi ilə bu il müəllifi ümummilli liderimiz Heydər Əliyev olan Milli Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbəmizin 5-ci ildönümünü təntənə ilə qeyd edir. Ölkə başçısı İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli Sərəncami ilə sentyabrın 20-si ölkəmizdə "Dövlət Suverenliyi Günü "elan edilib. Bütün bu qalibiyyət ilə Azərbaycan dünyada yeni reallıqların müəllifi kimi tanınır. Yeni reallıqlar isə Azərbaycanımızı yeni uğurlara hədəfləyir.

Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır və bu dəyərlərin qorunması ölkənin gələcək inkişafı üçün mühüm rol oynayır. Hər bir vətəndaş konstitusiyanı öyrənməli, onun prinsiplərinə hörmət etməli və dövlətin suverenliyini qorumaq üçün çalışmalıdır. "Konstitusiya və Suverenlik ili" bu dəyərlərin daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verəcəkdir.

Ulu Öndər hər birimizə tövsiyə etmişdir: "Hər bir şəxs Konstitusiyaya və qanunlara əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir"; "Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir. Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!".

Bu gün Azərbaycan xalqı öz milli sərvətinin sahibidir. Unudulmaz lider Heydər Əliyev irsinin ən layiqli davamçısı, zamanla öz siyasi fəaliyyəti ilə xalqın etimadını doğruldan Prezident İlham Əliyevin vurğuladığı kimi: "Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq". Azərbaycanın müstəqilliyi əbədidir, çünki onun arxasında xalqın iradəsi, qanı, canı bahasına qorunan torpaqlar və güclü dövlətçilik ənənəsi dayanır.

Sevindirici haldır ki, bu gün hər birimiz müasir müstəqil Azərbaycanın uğurlarından, regionda və dünyada söz sahibliyindən, sözünün imzası qədər əhəmiyyətli olmasından qürur hissi ilə söhbət açırıq. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və rəşadətli ordumuzun sayəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə edilən zəfər "Dəmir Yumruğa" çevrildi. Həmin tarixi qələbə müstəqilliyimizin möhkəm əsaslara söykəndiyini bir daha sübut etdi. Dövlətimizin güclü ordusu, müstəqil siyasəti və xalqının birliyi Azərbaycanın suverenliyinin dönməz olduğunu təsdiqləyir.

***Gülnar BƏŞİROVA***
***AMEA-nın dissertantı, Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi***